Elm və İnnovativ Texnologiyalar Jurnalı Nömrə 20, 2022. 78-89
DOI: 10.30546/2616-4418.20.2022.78

# ERKƏN ORTA ƏSRLƏRDƏ MÜSƏLMAN ŞƏRQİNDƏ SİYASİ BAXIŞLAR HAQQINDA BƏZİ MÜHAKİMƏLƏR (600-1258-Cİ İLLƏR)

**Zənfirə QULİYEVA**
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan*

## Giriş

Müsəlman Şərqi dedikdə birinci növbədə İslam dininə (ideologiyasına) əsaslanan fövqəl mədəni geosiyasi və geogoğrafi arealı əhatə edən mədəni mühit başa düşülür. Qeyd etmək lazıdır ki, islam dini Ərəbistanda meydana gəlmiş, eramızın 622-ci ilindən Allahın Elçisi Həzrəti Məhəmməd Əleyhəssəlamın doğma şəhəri olan Məkkədən Yəsribə (sonralar Mədinə adlandırılmışdır) köçməsi ilə başlanır (İslam 1989, s.12). Beləliklə, eramızın VII əsrindən başlayaraq bəşəriyyət yeni fövqəlmədəniyyətin təşəkkül tapmasının və yüksəlişinin şahididir. Milyonlarla insan müasir dövr də daxil olmaqla bu günə kimi mənəviyyət dəyərlərindən siyasət dəyərlərinə kimi dünya görüşü baxımından yeni düşüncə tərzinə malikdirlər.


*© 2021 The Authors. This is an open-access article distributed under the terms of the Creative Commons Attribution License.*

İslam mədəniyyətinin, İslam dünyagörüşünün özünəməxsus cəhətləri olması onu digər dünyagörüş tərzlərinə qarşı qoymağa əsas vermir. İslama belə münasibət ən azı cahillikdir. Çünki müasir qərb mədəniyyətinin fəxri sayıla biləcək rasional düşüncə tərzi hələ İslamın erkən və orta çağlarında özünü biruzə verməkdə idi.

Daha sonra xüsusi olaraq eyd etmək lazımdır ki, islami siyasi və hüquqi dəyərlərin yaranması və təşəkkül tapması Ərəb xilafəti ilə bağlıdır. Xilafət tarixinin bir neçə mərhələyə bölürlər. 1) Məkkə dövrü (622-661-ci illər), Həzrəti Məhəmmədən Həzrəti Əliyə qədər olan dövr, 2) Dəməşq Əməvi sülaləsinin hökmüranlıq dövrü (661-750-ci illər) 3) Bağdad –Abbasi sülaləsinin hökmüranlıq dövrü (750-1055-ci illər). Ümumiyyətlə, 1258-ci ilə kimi xəlifə bütün xilafətdə birinci dini şəxs sayılırdı (Феодоров К.Г., 1977,с.134-136). Ümumiyyətlə, tarixi ədəbiyyatlar islam tarixinin VII əsrdən XIII əsrə kimi olan dövrünü klassik islam dövrü kimi xarakterizə edirlər (Грюнебаум, 1988, 216 с.).

## Müsəlman Şərqində dövlət və hüquqla bağlı siyasi və hüquqi baxışlar

Xilafət parçalana qədər və kiçik feodal dövlətlər yaranana qədər Xəlifə xilafətin başçısı sayılırdı və onun əlində əvvəllər həm dini, həm də siyasi hakimiyyət səlahiyyətləri cəmləndirilmişdi. Xəlifə mərkəzi idarəetmə orqanlarının rəhbəri kimi vəzirləri təyin edirdi. Vəzir xəlifədən sonra ən nüfuzlu şəxs sayılıdı (Садагадар М.И.,М.1968, s. 32-36). Xilafətin mərkəzi idarəetmə orqanları dörd divandan ibarət idi. 1) Divani-əl xərac-maliyyə işləri, 2) Divani əl-Xatim-Xəlifənin katibi, 3) Divani-əl Rəsail-poçt və rabitə, 4) Divani əl-müstəqillət-hərbçilərin siyahıyaalınması və ordu təchizatı işləri (Садагадар М.И.,М.1968, с. 33-40). Xilafət məaliyyəsi Zəkat, xüms, xərac (bac, cizyə) hesabına formalaşdirilirdi. Eyni zamanda xilafət vilayətləri xəlifənin əhatəsində olan şəxslərdən 2-3 il müddətinə təyin edilən hakim və valilər tərəfindən idarə edilirdi. Məhkəmə işlərinə xəlifənin təyin etdiyi qazilər rəhbərlik edirdilər. Məhkəmələrin üç növü fəaliyyət göstərirdi. 1) Arbitraj məhkəməsi, 2) müsəlman məhkəməsi, 3) zimmist məhkəməsi-müsəlman olmayanlar üçün.

İslamda siyasi və hüquqi baxışların əsasını şəriət normaları təşkil edir. Şəriət ərəbcədir və məqsədə doğru aparan düzgün yol mənasını daşıyır. Şəriət “Quranı-Kərim”, hədislər və dini müəlliflərin əsərləri vasitəsi ilə insanlara çatdırılan “İlahi Qanun” sayılır. Şəriətin əsas məsələləri “fiqh” biliciləri

tərəfindən həll edilir. Fiqh cəmiyyətdə insanların davranışlarını qiymətləndirmək üçün əsas sayılırdı. Ümumiyyətlə, Şəriət qanun külliyyatı olmasa da möminlərin vəzifələrini müəyyənləşdirən vacib, tövsiyyəedici, qadağanedici göstərişlərdən ibarətdir (Киробаев Н.С, М.1987, с.51). Fiqh şəriət elmi kimi də şəciyyələndirilə bilər və onun əsasını Şəriət, "Quranı-Kərim", sünnə normaları əsasında faqih, icma üləmalarının razılığa gəldikləri ümumi fikirlər təşkil edir və iki üsuldan ibarətdir. 1) Əl fiqh- müsəlman hüququnun kökləri, 2) furu əl fiqh-hüquqa əlavələrdən ibarətdir(Киробаев Н.С, М.1987, s.53).

Hüquqi normaların və qanunların sistemləşdirilməsi ilk dəfə Malik İbn Ənəs tərəfindən tərtib edilən "Müvəqqa" (Tapdalanmış cığır) məcmuəsi vasitəsi ilə gerçəkləşdirilmişdir (Anrii Masse, B.1992, s. 103). Burada hüquqi təsəvvürlər hədislərə əsaslanırdı. Əsası Əbu Hənifə tərəfindən qoyulan Hənəfiçilkdə hüquqşünasın fikri daha əsas sayılırdı. Şafiyə məktəbinin nümayəndələri bu iki məktəb arasında orta mövqedə dayanmağa çalışırdılar. Burada hüquqi əsasların ardıcıllığı 1) "Qurani-Kərim", 2) Sünnə, 3) icma, 4) Qiyas normalarına əsaslanırdı (Киробаев Н.С., М.1987, с. 56). Şafiyənin keçmiş şagirdi Əhməd İbn Hənbəldə sonradan hüquqi məktəb yaratmışdır. Hənbəl daha çox hüquqi ənənələrə diqqət yetirərək hədislərin toplanılması ilə məşğul olmuşdur və çox az hallarda şəxsi mülahizələrə istinad etmişdir (Anri Masse, B.1992,.s.107-108). Ümumiyyətlə, qeyd etmək lazımdır ki, müsəlman ictimai-siyasi doktrinasının əsasını "islam icması-ümmət" təşkil edir. Ümmət dedikdə islam dinini ilk qəbul edənlər Məkkə və Mədinəlilər, sonradan isə bütün müsəlmanlar nəzərdə tutulur. Ümmət məhfumu xalq anlayışı ilə eyni məna daşıyır. Tarixi ədəbiyyatlarda X əsrə kimi mövcud olan xilafət dini mütləqiyyət kimi səciyyələndirilmişdir (Киробаев Н.С, М.1987 с. 58-62). Məlumdur ki, X əsrdən başlayaraq Müsəlman Şərqində dini hakimiyyət və hərbi siyasi güc artıq bir əldə, xəlifənin əlində deyildi. Dövrün siyasi reallıqları hüquqi və siyasi baxışlara da təsir edirdi. Bu baxımdan hüquqi və siyasi dəyərlərin qiymətləndirilməsində üç tendensiya özünü daha çöx büruzə verməkdə idi. Bəzi faqihlər hərbi siyasi güclərlə razılığa gələrək onların xidmətində idilər. 2) Bəzi faqihlər, məsələn hənbalilər, tarixi gerçəkliklərlə razılaşmayaraq ideal şəriət normalarına əsasən mühakimə yürüdürdülər. 3) Üçüncü tendensiya tərəfdərları ədalətin bərqərar olduğu cəmiyyət və ideal hökmüdar, ideal şəhər haqqında konsepsiya hazırlamağa başladılar. Müsəlman Şərqinin görkəmli mütəfəkkirləri Ən-Nəzzam (801-831), Əl Fərabi (870-950), İbn Sina (890-1037), Əla-əl-Məərri (973-1057), İbn-Baac (1070-1138), İbn Rüşd (1126-1198), Nizami Gəncəvi (1141-1209), Nəsrəddin Tusi (1201-1274), İbn

Xaldun (1332-1406) və b. məhz sözügedən üçüncü istiqamətin nüməyəndələri kimi göstərilə bilər. Müvafiq olaraq barəsində bəhs edilən üçüncü istiamətin nümayəndələrinə diqət yetirək.

Görkəmli ədib mütəfəkkir Ən-Nəzzamın əsil adı İbrahim İbin Səyyar İbn Xanidir. O, Bəlx şəhərində anadan olmuş, Bəsrədə təhsil almışdır (Закуев А.К., Б.1961, с.22). Ən-Nəzzamı analitiklər orta əsr müsəlman şərqində vicdan və fikir azadlığı, maarifçilik ideyalarının və eyni zamanda monarxiya və mütləqiyyətin tərəfdarı kimi təqdim edirlər(Закуев А.К., Б.1961, с. 115).

Daha sonra Əl Fərabinin siyasi baxışlarına diqqət yetirək. Əbu Nəsr əl Fərabi 870-ci ildə Arıs çayının Sırdərya çayına qovuşacağında yerləşən Fərab şəhərində anadan olmuşdur. Arıs şəhəri sonradan Otrar adlanmış və bu şəhərlə iki tarixi hadisə əlaqədardır. 1218-ci ildə monqolların yürüşü və 1405-ci ildə Teymurləngin burada vəfat etməsi. Qeyd etmək lazımdır ki, Əl-Fərabi ömrünün çox hissəsini Bağdad şəhərində keçirmiş, Həmdanilər sülaləsinə mənsub Seyf-əd-Dövlənin hörmətini qazanmışdı [Киробаев Н.С., М.1987, с.111). Əl-Fərabi təbiət və humanitar elmlərə dair 160-dan çox traktat yazmışdır. Onun əsərləri içərisində "Xeyirxah əməllər şəhərinin əhalisinin dünyagörüşü barədə traktat", "Xöşbəxtliyə aparan yol", "Vətəndaş siyasəti", "Dövlət xadiminin kəlamları", "Səadətə çatmağın yolları", "Platon qanunları barəsində" əsərləri diqqəti cəlb edir. Eyni zmanda Əl-Fərabi elmlərin təsnifatını vermiş, ictimai həyatı öyrənən elmlər kimi siyasət (elm əl mədəniyyə), hüquq elmini (fiqh), müsəlman teologiyasi (kəlam) elmlərinin adlarını qeyd etmişdir (Хайруллаев Ташкент 1973, с.27,с.49). Əl Fərabi öz traktatlarında dövlətin yaranması səbəblərini insanların mövcud olmaq və inkişaf etmələri üçün insani birliyinə olan ehtiyacları ilə əlaqələndirmiş, insan birliyini 1) bütöv və 2) yarımçıq birliklərə ayırmışdı. Fərabi bütöv cəmiyyətin üç növü olduğunu iddia edirdi. Bunlar "böyük", "orta", "kiçik" cəmiyyətlər hesab olunurdu. Fərabi düşüncəsinə görə bütöv cəmiyyət yer üzündə yaşayan bütün insanlar, orta cəmiyyət hər hansı bir şəhər əhalisi, kiçik cəmiyyət isə özündə daha az insan kütləsini birləşdirən kiçik toplumlar hesab olunurdu. Əl-Fərabi Xeyirxah əməllər şəhəri nəzəriyyəsinin yaradıcılarındandır və O, şəhəri insan toplumunun inkişaf və tərəqqisinin daha yüksək mərhələsi saymışdır. Fərabi düşüncəsinə görə Xeyirxah əməllər şəhərinin sakinlərinin dörd mühüm keyfiyyətləri olamlıdır. Buraya 1) nəzəriyyə, 2) fikriyyə, 3) etik-hulukiyyə, 4) sənət təcrübəsi keyfiyyətləri daxil edilirdi (Киробаев Н.С., М.1987, 115-116). Fərabi insanları mücərrəd düşüncə qabiliyyəti olan və olamayanlara bölürdü. O, hesab edirdi ki, çox az, seçilmiş insanların mücərrəd düşüncə qabiliyyətləri var.

Fərabi müsbət keyfiyyətləri iki yolla, təlim və tərbiyə vasitəsi ilə əldə edildiyini göstərmişdir. O, "Xeyirxah əməllər" şəhəri dedikdə bu şəhər tipinin hökmüdarının (ər-rəis-əl-əvvəl) imam, filosof, qanunları yazan hökmüdar olduğunu göstərmişdir. Bu şəhərin tam əksi olan digər şəhər tipləri kimi 1) cahiliyyə (islama qədərki ərəblər), 2) mənəviyyətsiz şəhər (əl fasiqə) şəriətdən uzaq şəhər, 3) əl-mübadilə-dəyişkən şəhər, yalan dini təsəvvürləri olan şəhər, 4) azmış şəhər-təhrif və yanlış təsəvvürlərə əsaslanan əqidəsi olan şəhər tiplərini göstərmişdir. Əl-Fərabi naqisliyin mövcud olduğu şəhərlərin xəstəliyə, yoxsulluğa məhkum olduqları və firəvanlığın onlardan uzaq olduğu qənaətində idi. O, hesab edirdi ki, bu şəhərlərin Xeyirxah əməllər şəhərinə çevrilməsi üçün ədalətli sosial qanunlara və insan düşüncəsinin dəyişdirilməsinə ehtiyac vardır. Əl-Fərabi eyni zamanda Cahillik şəhərinin beş fərqli növünü və bu şəhərlərin fərqli xüsusiyyətlərini də göstərirdi. Buraya 1) Zərurət şəhəri-əhalisi ancaq dolanışıq üçün bir-biri ilə təmas qururdular, 2) Mübadilə şəhəri-əhalsi varlanamq hərisliyinə tutulan şəhərlər hesab olunudu, 3) mənəviyyətsiz şəhərlər-əhalisinin ehtiraslara kölə olduğu şəhərlər, 4) özünə məftun olan şəhərlər-əhalinin yalnız şöhrət düşkünü olduğu şəhərlər, 5) hakimiyyət sevən şəhər-əhalisinin digər şəhər və xalaqlar üzərində hökmüranlığa çalışan şəhərlər daxil edilirdi. Əl Fərabi bu şəhər tiplərindən fərqli olaraq Xeyirxah əməllər şəhərinin hökmüdarının on iki müsbət keyfiyyətini qeyd edir. Buraya 1) sağlamlıq, 2) yaxşı əql, 3) yaxşı yaddaş, 4) yaxşı nitq, 5) elmi biliklərə meyl, 6) öz hərəkətlərini nizamlamaq, 7) ehtiraslarını cilovlama, 8) həqiqətə hörmət, 9) ədaləti hər şeydən üstün sayma, 10) cəsarət, 11) mərdlik, 12) hər kəsə yaxşı nümunə olmaq qabiliyyəti daxil edilirdi (Киробаев Н.С.,М.1987, с.119-122).

Əl-Fərabinin "Platon qanunlarının mahiyyəti tarktatında" Platonun siyasi fikirlərini təhlil edirdi. Platon qanunun həm cəmiyyət üzvləri, həm də hökmüdarlar üçün olduğunu söyləmişdi. Əl-Fərabi hesab edirdi ki, hakimiyyət xeyirli ideya hesab olunmalıdır. Çünkü, hakimiyyətin məqsədi Tanrı qanunları üçün zəmin yaratmaq şəhəri bir tərəfdən natəmizliklərdən təmizləmək, digər tərəfdən isə yaxşı əməllər üçün zəmin yaratmaq olmalıdır. Burada cinayətin iki növü də göstərilirdi, 1) itaətsizlik və 2) qanunun bəraət vermədiyi hərəkətlər. Eyni zamanda hökmüdarlar üçün vacib olan keyfiyyətlər kimi 1) qəlbin alicənablığı, hörmət, 2) firəvanlıq, 3) yaxşı ünsiyyət, 4) şöhrət, nüfuz sahibi olmaq keyfiyyətləri göstərilirdi(Аль-Араби, М.1987 с. 191) .

## İbn Sinanın siyasi fikirləri ilə əlaqədar dəyərləndirmələr

Əbu Əli İbn Sina (980-1037) Buxara şəhərində anadan olmuş və İsfahan şəhərində vəfat etmişdir. İbn Sinanın ictimai siyasi baxışları "Şəfa kitabının" sonuncu hissəsində, "Peyğəmbərlik haqqında traktat", "Qurtuluş və siyasət haqqında traktat" əsərlərində öz əksini tapmışdır. İbn Sina kütlələrdən həqiqət axtaran insanları fərqləndirirdi. Buraya 1) zahidlər, 2) abidlər, 3) ariflər daxil edilirdi. Eyni zamanda şəhər əhalisinin üç silkdən ibarət olduğu göstərilirdi. Bunlar 1) Hökmüdarlar, 2) sənətkarlar, 3) döyüşçü silkləri idi. İbn-Sina nümunəvi dövlət kimi xilafəti göstərirdi. O, hesab edirdi ki, xəlifənin ölkədə ədalət və firavanlığı təmin edə bilməsi üçün hökmüdarın 1) mərd, 2) cəsarətli, 3) mötədil, 4) ədalətli olması vacib şərtlərdən sayılmalıdır (Киробаев Н.С. ,М.1987, с.133).

## Nəsrəddin Tusinin siyasi fikirləri (1201-1274-cü illər)

Nəsrəddin Tusi 1201-ci ildə fevral ayının 18-də Həmədan şəhərində anadan olmuş, gənclik illərini Tuz şəhərində yaşamış, atasının himayəsi ilə ilahiyyat və hüquq elmlərinə yiyələnmişdi. O, 1235-ci ildə "Əxlaqi Nasir" əsərini yazıb qurtarmışdır. Tusinin siyasi baxışları "Masri əl Munarı" əsərində öz əksini tapmışdır. 1256-cı ildə N.Tusi Hülakilərin vəziri təyin edilmişdi. O, 1274-cü ildə iyun ayının 25-də Bağdad şəhərində dünyasını dəyişmiş, Camal məscidində dəfn edilmişdir. N.Tusi Azərbaycan siyasi fikrinin ilk ciddi nəzəriyyəçilərindən hesab edilir. Tusidə dövlət insanların yaşamaq üçün könüllü birliyi kimi qəbul edilir, dövlət və cəmiyyət anlayışları yaxın məzmunlu anlayışlar kimi təqdim olunur. N.Tusi insan cəmiyyətini siniflərə bölürdü. 1) Birinci sinifə qələm əhli, alimlər, hüquqşünaslar, qazilər, mirzələr, riyaziyyatçılar, münnəcimlər, həkimlər, şairlər daxil edilirdi. Birinci sinifdən dövlətdəki əqidənin sabitliyinin asılı olduğu bildirilirdi. 2) İkinci sinif qılınc əhlı, döyüşçülər, imam uğrunda mübarizə aparan mücahidlər, mütəvəllalar, qazilər daxil edilirdi. Onlar sərhədlərin keşiyində dayanır, ölkə daxilində isə dövlət idarəsini həyata keçirirdilər. 3) Üçüncü sinifə tacirlər, sənətkarlar daxil edilirdilər. Bu sinifdən ölkənin maddi rifahının asılı olması göstərilirdi. 4) Dördünücü sinifə əkinçilər və maldarlar daxil edilirdi və onların əsas təyinatının torpağın becərilməsi və ölkəni ərzaqla təmin edilməsi olduğu göstərilirdi (Рзаев А.К, М.190, с. 21-23).

Nəsrəddin Tusidə şəhərlərin iki ümumiləşmiş tipini, 1) "Xeyirxah əməllər şəhəri" və 2) "Xeyirxah olmayan şəhərlər" tipini göstərmişdir. O, hesab edirdi ki, ideal şəhər monarx və Ali Şura tərəfindən idarə edilən şəhərdir. İdeal şəhər əhalisi isə 1) anadan müdrik doğulanlar, 2) müdrikliyə can atanlardan, 3) qanunların müdrik olmağa məcbur etdiyi insanlardan ibarət olmalı idi. N.Tusi dövlətin dayaqları kimi 1) qanunları tənzimləyənləri-hüquqşünasları, natiqləri, şairləri, 2) qanunları ədalətsizliklərdən qoruyanlardan, 3) şəhərlərin təhlükəsizliyini gözləyənlərdən, 4) şəhər təminatı ilə məşğul olanlardan ibarət olduğunu göstərirdi(Рзаев А.К., М.1990, с.25-27). N.Tusi xeyirxah əməlləri olmayan şəhərləri üç tipə bölürdü. Bunlar 1) cahil, 2) günah, 3) azmış (zəllə) şəhərləri hesab olunurdu. O, cahiliyyənin də 6 nümunəsini olduğunu göstərmişdir. Bunlar 1) istehlak (zəruri), 2) asılı (nazamı), 3) eqoist (xissab), 4) əsilzadə (kəramət), 5) hökmüranlıq (qoçu), 6) hürriyyət (anarxiya) şəhərləri hesab olunurdu (Рзаев А.К., М.1990, с.27). N.Tusi dövlət idarəçiliyinin beş elementinin 1) müdriklər, 2) maarifçilər, 3) dövlət qanunlarının keşikçiləri, 4) asayişin keşikçiləri, 5) maddi rifah və maliyyə işlərini aparanların olduğunu da əsaslandırmışdır.

N.Tusidə siyasət elm kimi dövlət, hərbi, dini, daxili siyasətlərə bölünürdü. Xeyirxah siyasətin xalqı əmin amanlığa, xeyirxah olmayan siyasətin isə xalqı kölə vəziyyətinə gətirib çatdırdığı göstərilirdi. Müharibə və sülhə münasibətə gəldikdə isə ədalətli və ədalətsiz aparılan müharibələrin olduğuna diqqət yönəldilirdi. Ədalətli müharibə dedikdə din və vətənin müdafiəsi üçün aparılan müharibələr nəzərdə tutulurdu (Рзаев А.К., М.1990, s. 28-29).

N.Tusi eyni zamanda müqavilələrin dayandığını, qanunların yaradıcısı və icraçılaırının olduğuna diqqəti yönəldirdi. N.Tusi həmçinin dövlətin qanunlar üzərində bərqərar olduğunu, ədalətin üç şərtinin möcudluğunu əsaslandırırdı. O, 1) əhalinin müxtəlif təbəqələri arasında anlaşmanı, 2) xalqa diqqətli davranışı, 3) hər bir şəxsə layiq olduğunu çatdırmağı və onların qorunmasını vacib şərt hesab edirdi. Ədalət və hüquq bərabərliyinin təmin olunması üçün isə 1) mal və məhsullar üzərində, 2) pul əməliyyatlarında, 3) icbari işlərdə bərabər hüquqların təminatı zəruri sayılırdı (Рзаев А.К.,М.1990, с.36).

## İbn Xaldunun siyasi fikirləri

İbn-Xaldun 1332-ci ildə may ayının 27-də Tunisdə anadan olmuşdur. İbn Xaldun nəslinin nümayəndələri Ərəbistan yarımadasında, Əndəlusda yaşamışlar. İbn Xaldunun həyatı barədə geniş məlumat var, bu isə onunla əlaqədardır ki, o, gündəlik yazmışdır. İbn Xaldun Tunis sultanı Əbu İshaqın adi mirzələrindən idi (Игнатенко А.А., М.1980, с. 17). İbn Xaldunun ailəsi və uşaqları dəniz səyahəti zamanı ölmüşlər. İbn Xaldunun özü isə 1406-cı ildə mart ayının 16-da vəfat etmişdir.

Müvafiq olaraq İbn Xaldunun siyasi fikirlərinin nəzərdən keçirilməsi yerinə düşərdi. İbn-Xaldun düşüncəsinə görə insanları birləşməyə iki amil məcbur edir. 1) Birinci amil insanların qida əldə etmək, dolanışıq üçün onları birgə səy göstərmələrinə sövq edən amildir. 2) İkinci amil insanların ətraf mühitdən birgə qorunmasının tələb edən amilidir. Bu iki amilin insanları sosial varlıqlara çevirdiyi bildirilirdi (Игнатенко А.А., М.1980, с. 56). İbn Xaldun düşüncəsinə görə insanlar əvvəllər vəhşilər kimi yaşamış, sonra əkinçilik və heyvandarlıq, daha sonra sənət və ticarətlə məşğul olmuşlar (Игнатенко А.А., М.1980, с. 66). Daha sonra qeyd etmək lazımdır ki, İbn Xaldun anlayışları içərisində "Umran" anlayışı xüsusi olaraq seçilir. Bu anlayış geniş mənada "sivilizasiya", bəşər mədəniyyəti, dar mənada isə insan cəmiyyəti, şəhər-dövlət kimi dərk olunurdu (Киробаев Н.С., М.1987, с.60). İbn Xaldun insanların birləşməsinin bir neçə formasını göstərirdi. 1) Xilf-bir neçə nəsil və tayfaların birliyi, 2) İstina, nəsil və tayfaya digər tayfa üzvlərinin qəbul edilməsi, 3) rikk-köləlik, 4) vilayə-digər nəsil və tayfa üzərində himayədarlıq (Игнатенко А.А., М.1980, с. 72).

İbn Xaldun həmçinin bədəvilərlə şəhərlilərin (xidara) həyat təzi arasındakı fərqləri də şərh etmişdir. O, dövlət anlayışını mülk anlayışının sinonimi kimi də işlətmişdir. Dövlət mülk və digər insanlar üzərində hökmüranlığın mövcud olduğu yerdə yanadığı fikri əsalandırılırdı (Игнатенко А.А., М.1980, с.78-79). İbn-Xaldun dövlətin üç növünü fərqləndirirdi. 1) Siyasət dünya-islam teokratiyası, şəriət qanunlarına əsasən idarə olunan, 2) siyasət-əqliyyə-insan əqlinin müdrikliyinə əsaslanan qanunlarla idarə olunan, 3) siyasət-mədəniyyə-ərəb və müsəlman hikmətlərinə əsasnalan qanunlar əsasında idarə edilən dövlət növlərini göstərirdi. O, ideal dövlət dedikdə "əl-mədinə fədilə"- ərəb və müsəlman müdriklərinin idarə etdiyi dövləti başa düşürdü (Киробаев Н.С., М.1987, с.154). O, dövlətin təşəkkül tapmasının bir neçə mərhələdən keçdiyini də iddia edirdi. Birinci mərhələdə rəhbərlə digər cəmiyyət üzvləri arasında ciddi fərqin olmadığı, ikinci mərhələdə sülalələrin bərqərar olduğu, rəhbər və

hökmüdarların yarandığı, üçüncü mərhələdə hakimiyyətin yüksəlişi, hökmüdarın şəxsi hökmüranlığının güclənməsi, sərvət və nüfuza şəriksiz sahib olması, dördüncü mərhələdə hakimiyyətin tənəzzülü, israfçılığın baş alıb getdiyi göstərilirdi (Киробаев Н.С., М.1987, с.154).

İbn Xaldun əsərlərində təbəələrin, digər tayfalardan olanların əsarətinə düşməsi halları da göstərilirdi. İnsan birliyinin bu halı elmi ədəbiyyatlarda ksenokrtiya kimi səciyyələndirilir. İbn Xaldun dövlətin iqtisadiyyata müdaxiləsinin iki formasından bəhs edirdi. Birinci yol vergilərlər, ikinci yol birbaşa müdaxilə kimi, ticarət və bazarın konyukturasına birbaşa müdaxilə yolu kimi səciyyələndirilirdi (Игнатенко А.А., М.1980, с. 79-88).

## Nəticə

Şəriət islam dinində, islam dövlətçiliyində mühüm yer tutur. İslamın dini dünya görüşü sistemi kimi yaranması və formalaşması Ərəbistan yarımadasında baş verən geosiyasi, etnoideloji proseslərlə bilavasitə bağlıdır. Artıq VIII əsrdən başlayaraq baş verən hadisə və proseslərin arealı daha da genişlənmiş, islami dəyərlər bütün dünyada yayılmağa başlamışdır (Azərbaycan da həmin hadisə və proseslərin iştitakçısı kimi diqqəti cəlb edir) . Qeyd etməkl lazımdır ki, hüquqi-siyasi baxışların əsasını şəriət və fikh təşkil etsə də, eyni zamanda islam dünyasının mütəfəkkirləri şəriət və fikhə zidd olmayan, həmçinin islami siyasi dəyərlərdən qaynaqlanan xüsusi konsepsiyalar irəli sürmüşlər. Bu konsepsiyların məğzini ideal cəmiyyət, ədalətin bərqərar olduğu xeyir əməllər şəhəri haqqında fikirlərin irəli sürülməsi təşkil edir. Nümunə kimi, İbn-Xaldun, İbn-Sina, Əl-Fərabi, Nəsirəddin Tusi, Nizami Gəncəvi kimi bütün Şərqin frikir tarixinin görkəmli nümayəndələrinin fikirlərini , irəli sürdükləri nəzəriyyələri göstərmək olar.

## Açıqlama bəyanatı

Müəllif tərəfindən hər hansı potensial marağın toqquşması ilə bağlı məlumat verilməmişdir.

## Ədəbiyyat:

Anri Masse, "İslam", Bakı, 1992 , 256 s.
"İslam", Bakı 1989
Аль-Араби, «Историко-философские трактаты», Алма-Ата, 1985, 624 с.
Грюнебаум Г.Э., «Классический ислам (600-1258)», М.1988.,216 с.
Закуев А.К., «Философия ан-Наззама», Баку, 1961
Игнатенко А.А., «Ибн-Халдун», М.1980, 160 с.
Киробаев Н.С., «Социальная философия мусульманского Востока», М., 1987.,176 с.
Рзаев А.К., Ташкулов Д., «Туси», М.1990, 160 с.
Садагадар М.И., «Основы мусульманского права», М.1968, 154 с
Феодоров К.Г., «История государства и права зарубежных стран», Л.1977, 456с.
Хайруллаев, «Фараби крупнейший мыслитель средневековья», Ташкент, 1973, 100 с.

**Əlaqə məlumatı**

seyfeddinsamandarov@mail.ru

## RESUME

### Some conclutions on Political Views in the Early Middle Ages in the Muslim East (600-1258)

**Zanfira Quliyeva**
**Azerbaijan State University of Oil and Industry, Azerbaijan**

Sharia plays an important role in Islam and Islamic statehood. The emergence and formation of Islam as a system of religious worldview is directly related to the geopolitical and ethnic-ideological processes taking place in the Arabian Peninsula. (Azerbaijan also attracts attention as a participant in these events and processes).

It should be noted that although the basis of legal and political views is sharia and fiqh, at the same time, the thinkers of the Islamic world have put forward special concepts that do not contradict sharia and fiqh, as well as are derived from Islamic political values.

The essence of these concepts is to put forward ideas about an ideal society, a city of good deeds where justice is established. As an example, we can cite the views and theories of prominent representatives of the history of thought in the East, such as Ibn Khaldun, Ibn Sina, Al-Farabi, Nasreddin Tusi, Nizami Ganjavi.

***Keywords:*** history of economy, political thought, ideas, ideal city, East

## РЕЗЮМЕ

## Некоторые выводы о политических воззрениях в раннем средневековье на мусульманском Востоке (600-1258 гг.)

**Занфира Гулиева**
**Азербайджанский государственный университет нефти и промышленности, Азербайджан**

Шариат играет важную роль в исламе и исламской государственности. Возникновение и становление ислама как системы религиозного мировоззрения напрямую связано с геополитическими и этноидеологическими процессами, происходящими на Аравийском полуострове. (Азербайджан также привлекает внимание как участник этих событий и процессов).

Следует отметить, что хотя основой правовых и политических воззрений являются шариат и фикх, в то же время мыслители исламского мира выдвинули особые концепции, не противоречащие шариату и фикху, а также производные от исламского политического ценности.

***Ключевые слова:*** история экономики, политическая мысль, идеи, идеальный город, Восток.